# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №8 (7342) | 26 aprel 2014-cü il | şənbə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


# I RÜBÜN YEKUNLARI ƏTRAFLI MÜZAKİRƏ OLUNDU

**Şirvan şəhər İcra Hakimiyyəti başçısının geniştərkibli Şura iclası keçirilmişdir.**

**Şura iclasını Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov açmışdır.**

**Şura iclasında iki məsələ müzakirə olunmuşdur:**

“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü il birinci rübündə sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda söylədiyi proqram xarakterli nitqindən, tapşırıq və tövsiyələrindən irəli gələn vəzifələr və həmin dövrdə respublikamızın sosial-iqtisadi inkişafının yekunları barədə»

«2014-cü ilin fevral-may ayları ərzində Heydər Əliyev Mərkəzində şəhərin ümumtəhsil məktəblərində və şəhər ərazisində yerləşən məcburi köçkün məktəblərində təhsil alan XI sinif şagirdlərinə müasir Azərbaycan tarixinin tədrisi ilə bağlı keçirilən dərslər barədə.»

Birinci məsələ ilə əlaqədar şəhər icra hakimiyyətinin başçısı M.T.Camalov məruzə etdi. Məruzəçi dedi ki, aprel ayının 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

İclasda birinci rübün sosial-iqtisadi yekunları ətraflı müzakirə edildi, nöqsanlar açıqlandı, dəyərli tövsiyələr və ciddi tapşırıqlar verildi. Qarşıda duran vəzifələr müəyyənləşdirildi.

Cənab Prezidentin qeyd etdiyi kimi Azərbaycandakı iqtisadi artım dünya miqyasında nümunə ola bilər. Cari ilin birinci rübündə iqtisadiyyat 2,5 faiz, ölkə üzrə ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz, qeyri-neft sektoru təxminən 8,8 faiz, kənd təsərrüfatında artım 3 faizdən çox olmuşdur.

Azərbaycanın valyuta ehtiyatları ildən-ilə artır. Hazırda valyuta ehtiyatlarımız 53 milyard dollar təşkil edir.

Son illərdə Azərbaycanın dinamik inkişafı reallığa çevrilmişdir. Artıq dünya birliyi bunu görür, qiymətləndirir.

Cənab Prezident çıxışında qeyd etmişdir ki, bu il də əhalinin əmək haqları və pensiyaları artacaqdır. Cari ilin 3 ayında inflyasiya 2 faiz olduğu halda, əhalinin pul gəlirləri 4,5 faiz artmışdır.

Hamımız canlı şahidik ki, rayonlar, şəhərlər, kəndlər, qəsəbələr günü-gündən abadlaşır, genişmiqyaslı infrastruktur layihələr həyata keçirilir, böyük sənaye müəssisələri yaradılır. İşsizliyin aradan qaldırılması üçün tədbirlər həyata keçirilir. Elə bizim şəhərdə hal-hazırda G.Şıxbalaoğlu küçəsi ilə Mehmandarov küçəsinin kəsişdiyi sahədə artıq 22-ci nümunəvi məhəllənin tikintisi başa çatmaq üzrədir. Sakinlərin xahişləri nəzərə alınaraq 15 məhəllədə xeyir-şər mərasimləri keçirmək üçün hər cür şəraiti olan binalar tikilib sakinlərin istifadəsinə verilmişdir.

Biz bu ilin birinci rübünün cəmi iki ayı ərzində Azərbaycanda böyük bir sosial təşəbbüsün icrasını müşahidə edirik. Əhalinin dispanzerizasiya proqramı icra edilir. Bu, sırf sosial məna daşıyan bir layihədir. Bu layihənin icra edilməsi üçün ən müasir tibbi avadanlıqlardan istifadə edərək müayinələrdən keçmək üçün ölkəmizin hər bir yerində gözəl şərait vardır. Bu proses bu gün bizim şəhərdə də yüksək səviyyədə həyata keçirilir.

Fevral ayının 28-də cənab Prezident tərəfindən regionların sosial-iqtisadi inkişafına dair üçüncü (2014-2018-ci illər) Dövlət Proqramı təsdiq edilmişdir. Proqramda bütün məsələlər öz əksini tapmış, hər bir rayon və şəhərlər üzrə konkret vəzifələr, tapşırıqlar verilmişdir.

Azərbaycan birinci rübdə beynəlxalq siyasətlə bağlı öz mövqeyini dünyada daha da möhkəmləndirmişdir.

Beynəlxalq məsələlərlə bağlı bizim əsas məsələmiz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Ermənistan artıq iyirmi ildir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisini işğal altında saxlayır. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi eləcə də digər beynəlxalq təşkilatların-Avropa Şurası, Avropa Parlamenti, ATƏT, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri icra edilmir. Nəticə etibari ilə Ermənistana qarşı heç bir sanksiya tətbiq edilmir. Bu ədalətsizlikdir, ikili standartlardır. Biz isə bununla heç vaxt barışmayacağıq. Ona görə biz daha da güclü olmalıyıq və ilk növbədə hərbi gücümüzü artırmalıyıq. Uzun illər ərzində alınan silahlar, texnikalar, sursatlar bu gün bizim gücümüzü böyük dərəcədə artırmışdır.




Cənab Prezident yekun nitqində xüsusi olaraq qeyd etmişdir ki, biz gələcəkdə sahibkarlığın və kənd təsərrüfatının yüksəlişi üzrə çox dinamik inkişaf yolu ilə gedəcəyik, bu inkişafı təmin edəcəyik. Çünki bizim üstünlüyümüz ondan ibarətdir ki, Azərbaycanda demoqrafik vəziyyət çox müsbətdir, əhalimiz ildən-ilə artır. Son məlumata görə artıq 9 milyon 500 min səviyyəsinə çatmışdır. Ermənistanı hər il təxminən 80-100 min insan tərk edir və bu ilin birinci rübünün statistikasına görə 20 mindən çox insan tərk etmişdir.

Bildiyiniz kimi 2014-cü il “Sənaye ili” elan edilmişdir və sənayeləşmə ilə bağlı düşünülmüş siyasət aparılır.

Qarabağ müharibəsi veteranlarının və əlillərinin problemləri ardıcıl olaraq həll edilir. Bir müddət əvvəl cənab Prezidentin imzaladığı sərəncam əsasında bu kateqoriyadan olan 80 min insanın sosial təminatı yaxşılaşdırılmışdır.

2010-cu il cənab Prezidentimiz tərəfindən Azərbaycanda “Ekologiya ili” elan edilmişdi. Elə o zaman cənab Prezident qeyd etmişdi ki, “Ekologiya ili” hər il olmalıdır. Cənab Prezident Azərbaycanda “Ekologiya ili” elan etdiyi vaxtdan bu günə kimi, yəni son 4 il ərzində təkcə Şirvan şəhərində 13 mindən çox ağac, 10 minə yaxın müxtəlif gül kolları əkilib yetişdirilmişdir. Cənab Prezident iclasdakı yekun nitqində tam ciddiliklə demişdir: “Biz ekoloji vəziyyətlə bağlı məsələləri daim diqqət mərkəzində saxlayırıq. Ancaq ictimaiyyəti də, məni də narahat edən məsələ ağacların kəsilməsi məsələsidir. Buna yol verməк olmaz. Hesab edirəm ki, biz burada daha da ciddi məsuliyyət tətbiq etməliyik. Ağackəsmə tam şəkildə dayandırılmalıdır. Ancaq nadir hallarda, o da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi ilə haradasa ağac köçürülə, ya kəsilə bilər. Ona görə mən dəfələrlə bu məsələlərlə bağlı öz fikrimi bildirmişəm. Ancaq biz istədiyimizə tam şəkildə nail ola bilməmişik. Gecə vaxtı gəlirlər, qanunsuz olaraq ağacları kəsirlər, yerləri düzəldirlər ki, ev tiksinlər. Bu, vicdansızlıqdır, bu cinayətdir. Biz ağacları kəsənlərə qarşı daha da ciddi tədbir görməliyik. Onlar məsuliyyətə cəlb edilməlidir. Bir daha demək istəyirəm ki, şəhərdə bir dənə də olsun ağac Ekologiya və Təbii Sərvətlər Nazirliyinin icazəsi, rəyi olmadan kəsilə bilməz. Bu, mənim son xəbərdarlığımdır”.

Artıq 2015-ci ildə keçiriləcək birinci Avropa oyunlarına hazırlığın həlledici mərhələsinə başlanılmışdır. Bu yaxınlarda Avropa Olimpiya Komitəsinin Prezidenti və Koordinasiya Komitəsi Bakıda olmuş, hazırlıqla bağlı gedən işlərə çox yüksək qiymət vermişlər.

Nəqliyyat sektorunun da genişmiqyaslı inkişafı davam etdirilir. Yaxın günlərdə dünya miqyasında ən gözəl aerovağzal komplekslərinə bərabər Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksinin istifadəyə verilməsi nəzərdə tutulur. Dəmir yollarının inkişafı ilə bağlı Dövlət Proqramı icra edilir. Bu ilin ortalarında yeni tikilən beynəlxalq dəniz limanının birinci mərhələsinin tamamlanması nəzərdə tutulur. Metro tikintisi sürətlə davam etdirilir və yaxın zamanda metro stansiyalarının sayının 70-ə çatdırılması nəzərdə tutulur.

Hamımıza yaxşı məlumdur ki, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli cənab Prezidentimizin daim diqqət mərkəzindədir. Bu il də məcburi köçkünlərin mənzillə təmin olunma proqramı davam etdiriləcəkdir.

İcazə verin çıxışımın sonunda ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevi əmin edim ki, ölkəmizin inkişafı naminə şirvanlılar həmişə olduğu kimi, bundan sonra da var qüvvə ilə çalışacaq, onun ətrafında sıx birləşərək ona daim dəstək olacaqlar.

Sonra şəhər icra hakimiyyətinin sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri, icra hakimiyyəti başçısının müavini Elman Abbasov «Şirvan şəhər İcra Hakimiyyətinin 2014-cü ilin birinci rübündə şəhərin sosial-iqtisadi inkişafı sahəsində gördüyü işlər barədə» məruzə etmişdir.

E.Abbasov demişdir ki,13.04.2014-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. İclasda çıxış edən dövlətimizin başçısı ölkəmizin iqtisadi inkişafını təhlil etmiş, əldə olunan uğurlardan və qarşıda duran vəzifələrdən danışmışdır.

Qeyd etmək lazımdır ki, ölkəmizin iqtisadi inkişafının təmin olunmasında Şirvan şəhərinin də özünəməxsus xüsusi çəkisi olmuşdur.

Belə ki, 2014-cü ilin birinci rübündə iqtisadiyyatın bütün sahələrində istehsal olunan məhsul və xidmətlərin həcmi 113,6 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,6 faiz çoxdur .

Ümumi məhsul buraxılışında 75,9 faiz xüsusi çəkiyə malik olan sənayedə 86,3 milyon manat məhsul istehsal edilmişdir. Sənayedə istehsal olunan məhsulun 43,3 faizi dövlət, 56,7 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Hesabat dövründə şəhərdə 74,0 min ton neft, 4,7 milyon m3 qaz və 1663,8 milyon kvt/saat elektrik enerjisi istehsal edilmişdir. Tikinti müəssisələrinin gördüyü işin həcmi 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,0 dəfə artaraq 10,4 milyon manat təşkil etmişdir.

Nəqliyyat müəssisələri tərəfindən keçən ilin müvafiq dövrü ilə müqayisədə 7,7 faiz çox sərnişin, 4,2 faiz çox yük daşınmışdır.

Əhaliyə göstərilən rabitə xidmətinin səviyyəsi xeyli yaxşılaşmışdır.

Şirvan şəhərində fəaliyyət göstərən Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan “Telemexanika” və “Araz” zavodlarında bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Silahlı Qüvvələrini NATO dövlətlərinin standartlarına uyğun yeni növ məhsullarla təmin etmək məqsədi ilə “Telemexanika” zavodunda sahəsi 4 min kv. metrə yaxın istehsal sahəsi tikilmişdir.

Zavodda 2014-cü ildə 2 yeni istehsal korpusunun açılışı nəzərdə tutulmuşdur ki, bu da xeyli iş yerlərinin açılmasına zəmin yaradacaq.

Əhalinin təbii qaza olan tələbatını ödəmək məqsədilə 2014-cü ilin birinci rübündə şəhərin qaz şəbəkəsində təmir və yenidənqurma işləri aparılmış, istismara yararsız qaz kəmərləri yenisi ilə əvəz olunmuşdur.

Əhalini elektrik enerjisi ilə səmərəli təmin etmək məqsədilə Şirvan şəhər Elektrik şəbəkəsi tərəfindən 2014-cü ilin birinci rübündə 12 min metr müxtəlif təyinatlı kabel və naqil xətləri dəyişdirilmiş, xeyli yarımstansiyalar təmir edilmiş, əhali fasiləsiz olaraq elektirik enerjisi ilə təmin edilmişdir.

Şəhər üzrə mərkəzi və məhəllədaxili su-kanalizasiya xətlərində əsaslı və cari təmir işləri aparılmış, Kənd evləri yaşayış massivində 250 ədəd “Smart” kart tipli sayğaclar quraşdırılmışdır.

Təhsilin keyfiyyətinin yüksəkdilməsi, istedadlı şagirdlərin yetişdirilməsi diqqət mərkəzində saxlanılır. Təhsil şöbəsi tərəfindən bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilir.

Fənn olimpiadalarının I və II şəhər turları keçirilmişdir. 12 yanvar 2014-cü il tarixdə II şəhər turunun 14 nəfər qalibi 16-18 mart 2014-cü il tarixdə Bakı şəhərində təşkil olunmuş respublika mərhələsində iştirak edərək Azərbaycan dili və ədəbiyyat fənni üzrə 9 nömrəli tam orta məktəbin IX sinif şagirdi İbrahim Əliyev və 20 nömrəli tam orta məktəbin XI sinif şagirdi Ofeliya Süleymanova IV yeri tutmuşlar. Beynəlxalq Türkcə Olimpiadasının Azərbaycan finalında isə 16 nömrəli tam orta məktəbin X sinif şagirdi Ruslan Əhmədov respublika ikincisi olmuşdur.

**(ardı 2-ci səhifədə)**

# I RÜBÜN YEKUNLARI ƏTRAFLI MÜZAKİRƏ OLUNDU

(əvvəli 1-ci səhifədə)

Prezident Administrasiyası Regional idarətmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi tərəfindən şəhər icra hakimiyyətinə ünvanlanmış tövsiyələrə uyğun olaraq şəhər Təhsil şöbəsi tərəfindən müstəqil Azərbaycan Respublikasının tarixinə dair seçilmiş mövzular üzrə keçiriləcək dərslər üçün 2014-cü ilin fevral ayının 03-dən may ayının 27-dək olan dövrü əhatə edən qrafik tərtib edilmişdir.

Son illərdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan sosial yönümlü siyasətin nəticəsi olaraq səhiyyənin inkişafı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.

Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev respublika əhalisinin sağlamlaşdırıcı tibbi müayinələrə cəlb olunması, onların sağlamlığının mühafizəsini təmin etmək məqsədi ilə 2014-cü ilin fevral ayının 17-dən may ayının 1-dək respublika əhalisinin sağlamlaşdırıcı tibbi müayinələrdən keçirilməsi ilə bağlı tapşırıq vermişdir. Cənab Prezidentin tapşırığının icrası ilə əlaqədar 2014-cü ilin fevral ayının 17-dən may ayının 1-dək şəhər ərazisində əhalinin sağlamlaşdırıcı tibbi müayinələrdən keçirilməsini təmin etmək məqsədilə şəhər icra hakimiyyətinin başçısı 14 fevral 2014-cü il tarixli 19 nömrəli sərəncam imzalamışdır.

Gənclərin asudə vaxtlarının səmərəli təşkil olunması istiqamətində gənclər və idman İdarəsi tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, 2014-cü ilin birinci rübündə 9 daxili tədbirdə 1671 nəfər, 3 respublika miqyaslı tədbirdə isə 28 nəfər yeniyetmə və gənc iştirak etmişdir.

Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən respublika miqyaslı yarışlarda 260 nəfər yeniyetmə və gənc şəhərimizi təmsil edərək 17 nəfər I yerə, 15 nəfər II yerə, 20 nəfər isə III yerə layiq görülmüşdür.

Qeyd etmək lazımdır ki, şəhər iqtisadiyyatının dinamik inkişafı əhalinin sosial vəziyyətinin daha da yaxşılaşmasına, son nəticədə onların alıcılıq qabiliyyətlərinin artmasına səbəb olmuşdur.

Iqtisadiyyat və Sənaye Nazirliyi Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 2014-cü ilin birinci rübündə Şirvan şəhəri üzrə 3 layihə həyata keçirmiş, 38,5 min manat kredit verilmişdir.

Şirvan Regionlararası Təchizat Bazası tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına 1 milyon 523 min manat həcmində 67 lizinq xidməti göstərilmişdir.

2014-cü ilin birinci rübündə Şirvan şəhər üzrə dövlət büdcəsinin yerli gəlirlərinin proqnozu 3 milyon 615 min manata qarşı 3 milyon 750 min manat və ya 103,7 faiz yerinə yetirilərək proqnozda nəzərdə tutulduğundan 135,5 min manat artıq vəsait daxil olmuşdur.

2014-cü ilin birinci rübündə daxil olmuş gəlirlərin məbləği 2013-cü ilin eyni dövrü ilə müqayisədə 22,4 min manat və ya 0,6 faiz çox olmuşdur.

2014-cü ilin birinci rübündə yerli xərclərin proqnozu 3 milyon 813 min manata qarşı 2 milyon 960 min manat və ya 77,6 faizi icra edilmişdir.



Aztəminatlı əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması həmişə diqqət mərkəzində olmuşdur.

Rüb ərzində Şirvan şəhər Dövlət Sosial Müdafiə Fondunun məcburi dövlət sosial sığorta haqları üzrə daxil olmaları 1 milyon 044 min manat olmuşdur ki, bu da 2013-cü ilin birinci rübü ilə müqaisədə 119,3 min manat və ya 12,9 faiz çoxdur.

Cari ilin birinci rübündə 237 nəfəri işlə təmin olunmuş, 21 nəfərinə isə işsiz statusu verilmişdir. Mərkəz tərəfindən şəhər ərazisində fəaliyyət göstərən 6 idarə və müəssisədən kvota ilə ayrılmış 8 boş (vakant) iş yerlərinə sosial müdafiəyə xüsusi ehtiyacı olan 3 nəfər işaxtaran vətəndaş göndərilmişdir ki, onların 3-ü də qaçqın və məcburi köçkün olmuşdur.

Əvvəlki illərdə olduğu kimi 2014-cü ilin birinci rübündə də şəhər ərazisində tikinti, quraşdırma və abadlıq işləri davam etdirilmişdir.

H.Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə şəhərin M.Ə.Rəsulzadə prospektində 100 çarpayılıq körpələr evi-uşaq bağçasının dünən cənab başçısımız tərəfindən təntənəli surətdə təməli qoyulmuş və tikintisinə başlanmışdır. Bundan başqa T.İsmayılov küçəsində yaxın zamanlarda daha bir 100 çarpayılıq körpələr evi-uşaq bağçasının tikintisinə başlanılması nəzərdə tutulur.

Şəhərin 13 nömrəli tam orta məktəbin əsaslı, 20 nömrəli orta məktəbin əsaslı təmir olunması və idman zalında bərpa-gücləndirmə işlərinin aparılması üçün layihə-smeta sənədləri hazırlanaraq Fövqəladə Hallar Nazirliyinin Dövlət Ekspertiza Baş İdarəsinə təqdim olunmuşdur. Hər 2 məktəbdə yaxın zamanlarda əsaslı təmir və bərpa-gücləndirmə işlərinə başlanacaqdır. Şəhərdə ən müasir üslubda 5 saylı Ərazi Vergilər İdarəsi və DSMF-nun Şirvan şəhər şöbəsi üçün yeni inzibati binalarının tikintisi davam etdirilir.

2014-ci ilin birinci rübündə Şirvan Bələdiyyəsi tərəfindən xeyli tikinti-təmir, abadlıq, quruculuq işləri görülmüşdür.

Şəhərin küçə və meydanlarında genişmiqyaslı yaşıllaşdırma işləri də davam etdirilmişdir.

Rüb ərzində şəhər ərazisində 600-ə yaxın ağac, 3000 ədəd mövsümü güllər əkilmişdir. Küçələrin fasiləsiz işıqlanması, məişət tullantılarının vaxtında daşınması təmin edilmişdir.

İcazə verin çıxışımın sonunda Sizi əmin edim ki, Şirvan şəhər İcra Hakimiyyəti həmişə olduğu kimi bundan sonra da cənab Prezident tərəfindən qarşıya qoyulan vəzifələrin icrası istiqamətində öz səylərini davam etdirəcək, hörmətli başçımız Mərdan Camalovun təşkilatçılığı və tələbkarlığının nəticəsi olaraq Şirvanımız respublikamızın ən gözəl şəhərlərdən birinə çevriləcək.

Birinci məsələnin müzakirəsi ətrafında Mərkəzi şəhər xəstəxanasının baş həkimi Fərhad Səfərov, 3 saylı Ərazi Ekologiya və Təbii Sərvətlər şöbəsinin rəisi Səxavət Əliyev çıxış etdilər.

Şəhər icra hakimiyyətinin ictimai-siyasi və humanitar şöbəsinin müdiri, icra hakimiyyəti başçısının müavini Elmira Ağayeva ikinci məsələ- «2014-cü ilin fevral-may ayları ərzində Heydər Əliyev Mərkəzində şəhərin ümumtəhsil məktəblərində və şəhər ərazisində yerləşən məcburi köçkün məktəblərində təhsil alan XI sinif şagirdlərinə müasir Azərbaycan tarixinin tədrisi ilə bağlı keçirilən dərslər barədə»məruzə etdi.

E.Ağayeva dedi ki, hər birimizə məlumdur ki, Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində çox ciddi problemlərlə üzləşmişdi. Ölkədə ictimai-siyasi durum getdikcə gərginləşir, xaos, anarxiya və özbaşınalıq baş alıb gedirdi. Bütün sahələrdə nəzərə çarpan tənəzzül müstəqilliyimizi təhlükə altına almaqdaydı. Lakin dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmiz nicat tapdı. Ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan böyük inkişaf, tərəqqi yoluna çıxdı. 1993-2003-cü illər Azərbaycan tarixinə dirçəliş dövrü kimi daxil oldu.

Bu gün bizim qarşımızda duran ən vacib məsələlərdən biri müstəlliyimizin qazanılması uğrunda aparılan mübarizəni və ümumilikdə müasir tariximizi yetişməkdə olan gənc nəslə öyrətmək və təbliğ etməkdən ibarətdir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən şəhər İcra Hakimiyyətinə ünvanlanmış "Müstəqil Azərbaycan Respublikasının tarixinə aid seçilmiş mövzuların tədrisinin təşkili ilə bağlı" tövsiyələrdə müstəqil Azərbaycan Respublikasının tarixinə dair seçilmiş mövzular üzrə tədrisin aparılması, müstəqil Azərbaycanda dövlət quruculuğu sahəsində ulu öndər Heydər Əliyevin genişmiqyaslı gərgin fəaliyyəti, bu yolda qarşıya çıxan maneə və çətinliklərin dəf olunması, ölkədə siyasi sabitliyin və iqtisadi dirçəlişin yaranması, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun getdikcə artması, həyata keçirilən sosial-iqtisadi layihələr, qazanılan uğurlar haqqında şagirdlərə daha ətraflı və dolğun məlumatların çatdırılması göstərişi verilmişdir.

Prezident Administrasiyası Regional İdarətmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi tərəfindən şəhər icra hakimiyyətinə ünvanlanmış tövsiyələrə uyğun olaraq şəhər Təhsil Şöbəsi tərəfindən müstəqil Azərbaycan Respublikasının tarixinə dair seçilmiş mövzular üzrə keçiriləcək dərslər üçün 2014-cü ilin fevral ayının 03-dən may ayının 27-dək olan dövrü əhatə edən qrafik tərtib olunmuşdur.

Dərslər şəhərin ümumtəhsil məktəblərində və şəhər ərazisində müvəqqəti məskunlaşmış Füzuli rayonu 10 nömrəli, Zəngilan rayonu 31 nömrəli və Cəbrayıl rayonu Böyük Mərcanlı kənd orta məktəblərində təhsil alan XI sinif şagirdlərinə tədris olunur.

Müstəqil Azərbaycan Respublikasının tarixinə dair seçilmiş mövzular üzrə Şirvan şəhər Heydər Əliyev Mərkəzində şəhərin ümumtəhsil məktəbləri və şəhər ərazisində müvəqqəti məskunlaşan məcburi köçkün məktəbləri üzrə XI sinif şagirdlərinə tarix dərslərinin keçirilməsi üçün şəhər icra hakimiyyəti tərəfindən bütün zəruri tədbirlər həyata keçirilmiş, dərslərin gedişinə tərəfimizdən ciddi nəzarət olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı Prezident İlham Əliyev mövcud inkişaf strategiyasını özünəməxsus mütərəqqi və innovativ əlavələrlə, zamanın çağırışlarına adekvat olan yeniliklərlə daha da zənginləşdirib. Bu isə ölkəmizə daha böyük müvəffəqiyyətlər qazandırır, Azərbaycanın dünya liderləri cərgəsində mövqelərini mütəmadi olaraq möhkəmləndirir.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, ölkəmizin siyasi, sosial-iqtisadi, mədəni və bütün başqa sahələrdə inkişafının təmin olunması, əhalinin rifah halının, bütün kateqoriyalardan olan insanların sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər barəsində qarşıdakı dərslərdə də məktəblilərə məlumat veriləcək, onlarda cəmiyyətimiz barəsində sağlam fikir formalaşdırılacaqdır.

İkinci məsələnin müzakirəsi ilə əlaqədar 2 nömrəli tam orta məktəbin tarix müəllimi Könül Rəsulova çıxış etdi.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov geniştərkibli Şura iclasını yekunlaşdırdı.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**



**Şirvan şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə YAP şəhər təşkilatının akt zalında Pasxa bayramı münasibətilə rus icması şəhər şöbəsi fəalları, tənha, aztəminatlı üzvləri ilə görüş keçirilmişdir.**

# PASXA BAYRAMI LAYİQİNCƏ QEYD OLUNDU

Görüşü şəhər icra hakimiyyətinin başçısı M.T.Camalov açmışdır. Başçı rus icması nümayəndələrini bayram münasibətilə təbrik etdi, onlara xoş arzularını çatdırdı. Sağlam, gümrah ömür arzuladı.

Bildirdi ki, Azərbaycanda tolerantlıq tarixən mövcud olmuşdur. Buna görə biz ulu öndər Heydər Əliyevə borcluyuq.

Ölkə Prezidenti İlham Əliyev də tolerantlığı uğurla davam etdirir. Respublikamızda, şəhərimizdə yaşayan, dinindən, dilindən asılı olmayaraq hər bir kəs özünü Azərbaycanın qanuni vətəndaşı hesab edir.

Şirvanda digər azsaylı xalqların nümayəndələri kimi rus icmasının üzvləri də burada hər cür qayğı ilə əhatə olunmuşlar. Müsəlman bayramları kimi Pasxa da şəhərimizdə layiqincə qeyd olunur. Təkcə bayramlarda deyil, adi günlərdə də bizə müraciət edən rus icmasının hər bir nümayəndəsinə həssaslıqla, diqqətlə yanaşırıq. Onların arzu, təkliflərі, xahişləri öyrənilir.Lazımi kömək göstərilir.

Başçı xüsusi vurğuladı ki, şəhərimizin sakinləri olan rus icmasının nümayəndələri istər çalışdıqları sahələrdə, istərsə də Şirvanın abadlıq, quruculuq işlərində fəallıq göstərir, yaxından iştirak edirlər.

Rus icması şəhər şöbəsinin sədri Lybov Urmantseva, Ruslan Burdov görüşdə çıxış etdilər. Onlara göstərilən qayğıya və diqqətə görə ölkə Prezdenti İlham Əliyevə, şəhər rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Müstəqil Azərbaycanı özlərinin doğma Vətəni bildiklərini, şəhər sakinlərini doğmaları, əzizləri saydıqlarını bildirdilər.

Bundan sonra da doğma Şirvanın ictimai-siyasi həyatında yaxından iştirak edəcəklərinə, azərbaycanlıların xeyir-şərində bir olacaqlarını söylədilər.

Başçı 50 nəfər tənha, aztəminatlı rus icma nümayəndəsinə maddi yardım göstərmişdir.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV(foto)**

**Heydər Əliyev Fondunun hesabına şəhərimizin M.Ə.Rəsulzadə prospektində tikiləcək 100 çarpayılıq körpələr evi uşaq bağçasının təməlqoyma mərasimi keçirilmişdir.**

# 100 ÇARPAYILIQ KÖRPƏLƏR EVİ - UŞAQ BAĞÇASININ TƏMƏLQOYMA MƏRASİMİ KEÇİRİLDİ

Mərasimi Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov açdı. Başçı dedi ki, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva respublikada uşaq bağçalarına böyük ehtiyac olduğunu və bu sahədə indiyədək görülən işlərin artırılmasının vacibliyini dəfələrlə söyləyib. Dövlət proqramları və Heydər Əliyev Fondunun çağırışına uyğun olaraq respublikada yüzlərlə təhsil müəssisəsi tikilmiş, təmir edilmiş, yeniyeni bağçalar inşa olunmuşdur. Şəhərimizdə də belə bir uşaq bağçasının ucaldılması nəzərdə tutulub.

M.T.Camalov xüsusi qeyd etdi ki, statistik rəqəmlərə əsasən şəhərimizdə 7 min nəfərə yaxın bağçayaşlı uşaq var. 5 dövlət, 1 özəl uşaq bağçasında cəmi 520 nəfər uşaq tərbiyə alır. Bu rəqəmlər onu göstərir ki, Şirvanda da uşaq bağçalarına ehtiyac çoxdur.

Bu gün təməli qoyulan bağçanın noyabr ayının ortalarınadək istifadəyə veriləcəyi nəzərdə tutulub. Yeni uşaq bağçasının tikintisi elə əraziyə salınıb ki, burada şəhid ailələrinin və Qarabağ əlillərinin yaşadığı binalar yerləşir. 100 uşaq burada tərbiyə alacaq, onlarla iş yeri açılacaq.

Bu il T.İsmayılov küçəsində də daha bir bağçanın tikintisi nəzərdə tutulub. Amma bu dövlət hesabına deyil, iş adamının vəsiti hesabına tikiləcək. İstənilən imkanlı iş adamına lazımi şərait yaratmağa hazırıq.

Başçı mərsimə toplaşan sakinləri təbrik etdi.

Sonra sakinlərə söz verildi. YAP şəhər təşkilatının sədri Ə.İbrahimov və digər çıxış edənlər diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə, Heydər Əliyev Fondunun prezidenti M.Əliyevaya, şəhər rəhbərliyinə təşəkkür etdilər.

Başçı gilizi təmələ buraxdı. Bünövrəyə beton qarışığı töküldü.

İnşaatçılara uğurlar arzulandı. Xeyirli olsun!

**F.RƏHİMOV**

# DİYARIN TARİXİ ABİDƏLƏRİNƏ EKSKURSİYA



**18 Aprel-Beynəlxalq abidələr və tarixi yerlər günü münasibətilə Şirvan şəhər Tarixdiyarşünaslıq muzeyi ərazinin ölkə əhəmiyyətli abidəsi olan nekropola ekskursiya təşkil etmişdir.**

Ekskursiyada şəhər Mərkəzi Mədəniyyət evinin, Mərkəzi Kitabxananın əməkdaşları, şəhər 4 və 10 nömrəli orta məktəblərin şagirdləri və müəllim Əbil Əhmədov iştirak etmişdir.

Abidə üzrə ekskursiyanı muzeyin direktoru Gülşən Vəliyeva apardı. O, 18 Aprel-Beynəlxalq abidələr və tarixi yerlər günü haqqında məlumat verərək, onun əhəmiyyətindən danışdı. Sonra ekskursiya iştirakçılarını diyarımızın ölkə və yerli əhəmiyyətli abidələri haqqında məlumatlandıraraq söylədi ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 132 nömrəli qərarı ilə Əli Bayramlı (indiki Şirvan) şəhərinin ərazisində yerləşən 5 tarix və mədəniyyət abidəsi dövlət mühafizəsinə götürülmüşdür. Onlardan 2-si nekropol və İsmət Qayıbov adına mədəniyyət və istirahət bağıölkə əhəmiyyətli, 3-ü məscid, Zubovka suçıxarma stansiyasının binası və yaşayış evi (keçmiş poçt binası)yerli əhəmiyyətli abidələrdir.

Nekropolun qədimliyindən danışarkən G.Vəliyeva abidənin son tunc və erkən dəmir dövrünə aid olduğunu söylədi. Nekropol ərazisində olan qəbirlərin yaşı 300-400 ildir. Lakin, buradakı kurqanlar nekropolun son tunc və erkən dəmir dövrünə aid olduğunu söyləməyə əsas verir. Şirvan şəhərinin cənubunda, Kür çayının sol tərəfində, Çılpaqlı yaşayış massivində yerləşən nekropol tədqiq olunmayan abidələrdəndir. Tədqiqat işləri aparılarsa abidənin yaşı, bəlkə daha da qədim dövrə aid edilər. G.Vəliyeva şəhərin ərazisində yerləşən abidələr haqqında geniş məlumat verərək, qeyd etdi ki, rəsmi dövlət mühafizəsinə götürülmüş abidələrdən başqa, ərazidə digər tarixi abidələr də (ibtidai icma dövrünə aid Kürovdağ mağaraları, Qanlı dərə üzərində daş körpü) mövcuddur. Bu barədə və ümumiyyətlə şəhərin ərazisində yerləşən abidələr haqqında yazıçıpublisist Eldar Qəmərlinin «Şirvan şəhəri» kitabında ətraflı məlumat verilir. Muzeyin direktoru ekskursiya zamanı bu kitabın bir neçə nüsxəsini şagirdlərə təqdim etdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş «Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı» na əsasən Şirvan şəhər Tarixdiyarşünaslıq muzeyi belə tədbirlərin gələcəkdə də həyata keçirilməsini nəzərdə tutur.

**Qədriyyə QULİYEVA,**
**Şirvan şəhər Tarixdiyarşünaslıq muzeyinin böyük elmi işçisi**

# 2013-cü ildə Şirvan şəhərində əsas fondların, obyektlərin istifadəyə verilməsi və əsas kapitala yönəldilmiş investisiyalardan istifadə edilməsi haqqında



**M.Mustafayev,**
*Şirvan şəhər Statistika idarəsinin rəisi*

Respublika üzrə ümumi iqtisadi inkişafın nəticəsi və bariz nümunəsi kimi, Şirvan şəhərində tikinti sektoru da sürətlə inkişaf etməkdədir. Bunu sahə üzrə sifarişçi tikinti təşkilatlarının fəaliyyətin əsas makroiqtisadi göstəricilərinin inkişaf dinamikası bir daha təsdiq edir. Tikinti sahəsinin dinamik inkişafını görmək üçün cari 2013-cü ilin nəticələrini ötən ilin müvafiq dövrü ilə müqayisəli şəkildə nəzərdən keçirək.

2013-cü ildə Şirvan şəhərində 7 iri və orta, 23 kiçik tikinti müəssisəsi və hüquqi şəxs yaratmadan fərdi sahibkarlıqla məşğul olan 6 fiziki şəxs tikinti fəaliyyəti göstərmişdir.

**Əsas fondların istifadəyə verilməsi.** 2013-cü ildə Şirvan şəhərində bütün maliyyə mənbələri hesabına 20150.8 min manatlıq əsas fondlar istifadəyə verilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.8 dəfə çoxdur. İstifadəyə verilmiş əsas fondların 16552.0 min manatlığını və ya 82.1 faizini istehsal təyinatlı, 3598.8 min manatlığını və ya 17.9 faizini isə qeyriistehsal təyinatlı əsas fondlar təşkil etmişdir. İstifadəyə verilmiş əsas fondların 7827.5 min manatlığı və ya 38.8 faizi büdcədən maliyyələşdirilmiş əsas fondların, 12323.3 min manatlığı və ya 61.2 faizi isə qeyri-dövlət sektorunun (bələdiyyələrin, fərdi sahibkarların, əhalinin və s.) payına düşmüşdür.

Əhalinin şəxsi vəsaiti hesabına ümumi sahəsi 28212.0 kvadrat metr, yaşayış sahəsi isə 14635.0 kvadrat metr olan 2560.0 min manat dəyərində yeni fərdi yaşayış evləri tikilib istifadəyə verilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 16.9 faiz çoxdur.

2013-cü ildə mərkəzləşdirilmiş qaydada investisiyalardan istifadə edən nazirliklər, komitələr, şirkətlər və digər təşkilatlar tərəfindən şəhərdə 6176.9 min manatlıq əsas fondlar istifadəyə verilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3.2 dəfə çoxdur.

**Əsas kapitala yönəldilmiş investisiyalar.** Şirvan şəhərində 2013-cü ildə müəssisələr, təşkilatlar və əhali tərəfindən şəhərin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələri hesabına əsas kapitala 77612.5 min manat məbləğində investisiya yönəldilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1.9 dəfə çoxdur.

Əsas kapitala yönəldilmiş investisiyaların 61502.2 min manatı və ya 79.2 faizi istehsal təyinatlı obyektlərin payına düşmüşdür. Bu göstəricilər ötən ilin müvafiq dövründə uyğun olaraq 30565.2 min manat və 73.1 faiz olmuşdur. 2013-cü ildə istehsal təyinatlı obyektlərə yatırılan investisiyaların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1.7 dəfə çox olmuşdur.

Hesabat dövründə əsas kapitala yönəldilmiş investisiyaların 16110.3 min manatı və ya 20.8 faizi qeyri-istehsal təyinatlı obyektlərin payına düşmüşdür. Bu göstəricilər ötən ilin müvafiq dövründə uyğun olaraq 11230.4 min manat və 26.9 faiz olmuşdur. 2013-cü ildə qeyri-istehsal təyinatlı obyektlərə yatırılan investisiyaların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 43.5 faiz artmışdır.

Əsas kapitala yönəldilmiş ümumi investisiyalardan tikintiquraşdırma işlərinə 72933.1 min manat vəsait sərf olunmuşdur ki, bu da əsas kapitala yönəldilmiş ümumi investisiyaların ümumi həcminin 94.0 faizini təşkil etmişdir. Bu göstəricilər ötən ilin müvafiq dövründə uyğun olaraq 26785.7 min manat və 64.1 faiz olmuşdur.

Son illərdə ölkənin daxili qaynaqları hesabına maliyyə imkanlarının artması nəticəsində istifadə edilmiş ümumi investisiyaların strukturunda da əhəmiyyətli dəyişikliklər baş vermiş, daxili investisiyaların həcmi xarici investisiyaları üstələmişdir. Belə ki, Şirvan şəhərində hesabat dövründə əsas kapitala yönəldilmiş daxili investisiyaların istifadə edilmiş bütün sərmayələrin ümumi həcmindəki xüsusi çəkisi 100.0 faiz və ya 77612.5 min manat təşkil etmişdir. Hesabat dövründə şəhər üzrə adambaşına düşən investisiyaların həcmi 947.8 manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 431.1 manat və ya 1.8 dəfə çoxdur.

Əhalinin şəxsi vəsaitləri hesabına əsas kapitala yönəldilmiş sərmayənin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 47.6 faiz, bələdiyyə vəsaitlərinin həcmi isə, 32.6 faiz artmışdır.

Cari il ərzində əsas kapitala yönəldilmiş ümumi vəsaitin 59.0 faizi sənaye sahələrinin inkişafına, 4.0 faizi nəqliyyat və anbar təsərrüfatına, 4.6 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlara, 2.6 faizi dövlət idarəetməsinə, 0.6 faizi tikintiyə, 7.7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsinə, 0.3 faizi ticarətə, 0.5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşəyə, 3.1 faizi maliyyə və sığortaya, 0.7 faizi informasiya və rabitəyə, 1.8 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsinə, 16.3 faizi isə digər sahələrdə xidmətlərin göstərilməsinə sərf edilmişdir.

Hesabat dövründə neft bölməsinə 42.8 min manat həcmində vəsait yönəldilmişdir. Qeyri-neft bölməsinin inkişafına sərf edilmiş vəsait əvvəlki ilin müvafiq dövrünə nisbətən 88.5 faiz artaraq 77569.7 min manat (ümumi sərmayənin 99.9 faizi) təşkil etmiş, o cümlədən 45799.6 min manat (59.0 faizi) qeyri-neft sənaye bölməsinin inkişafında istifadə edilmişdir. Qeyri-neft bölməsinə yönəldilmiş vəsaitin 67492.0 min manatı və ya 87.0 faizi dövlət, 10077.7 min manatı və ya 13.0 faizi isə qeyri-dövlət mülkiyyətli müəssisə və təşkilatların payına düşmüşdür.

Cari ildə yuxarıda qeyd olunanlardan əlavə, sosial sahənin inkişafı da diqqət mərkəzində olmuş və əhalinin şəxsi vəsaitləri hesabına ümumi sahəsi 24137.0 kvadrat metr, yaşayış sahəsi isə 14635.0 kvadrat metr olan yeni fərdi yaşayış evləri istifadəyə verilmişdir ki, onlara da əhali tərəfindən 2560.0 min manat həcmində sərmayə qoyulmuşdur.

Beləliklə, təhlildən də göründüyü kimi, sifarişçi tikinti təşkilatları üçün mövcud olan əlverişli investisiya mühiti nəticəsində şəhərin tikinti sektorunda müşahidə olunan davamlı inkişaf araşdırdığımız hesabat dövründə də davam etmişdir və sahənin inkişafının ölkənin maddi qaynaqlarının artmasına uyğun olaraq bundan sonra da davamlı olması proqnozlaşdırılır.

# UĞURLARIMIZLA YANAŞI GÖRÜLƏSİ İŞLƏRİMİZ DƏ VAR

**Şirvan şəhər Təhsil şöbəsinin nəzdindəki UGİMnin idmançıları bu ilin fevralmart aylarında bir sıra uğurlu nəticələr əldə etmişlər.**

Həmsöhbətim UGİMnin direktoru, Azərbaycanın Əməkdar Bədən Tərbiyəsi və idman xadimi **Əvəzağa Qarayevdir.** Onun söhbəti əldə edilən nəticələr barədədir:

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin əmri ilə bu ilin 11-17 fevral tarixlərində yeniyetmələrin boks üzrə Bakı şəhərində keçirilən Azərbaycan birinciliyində məşqçimüəllim Vahid Həvəskarinin 2 yetirməsi fərqlənmişdir. Belə ki, Şaiq Məlikov 60 kq çəki dərəcəsində mükafata layiq 2-ci, Samir Hüseynli isə 46 kq çəki dərəcəsində 3-cü yerə layiq görülmüşdür.

Mart ayının 11-17-də Bakı şəhərində «Təhsil» Respublika İdman Mərkəzinin 1998-1999-cu il təvəllüdlü qızlar arasında keçirdiyi voleybol üzrə birincilikdə komandamız Bakının Nəsimi, N.Nərimanov və Xətai rayonlarının idmançılarından sonra 15 komanda arasında 4-cü yerə çıxmışdır. Komandanı yarışa Pəri Mustafayeva hazırlamışdır.

25 fevral - 02 mart tarixlərində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yeniyetmələrin IX respublika oyunlarının Astara rayonunda keçirdiyi zona birinciliyində Vahid Həvəskarinin 3 yetirməsi fəxri kürsüyə qalxmışdır. Bu yarışda İsmayıl Səfərli 56 kq çəki dərəcəsində hamıdan güclü olduğunu sübut etmişdir. Məmməd Nəmini 46 kq, Şahin Yusifov 62 kq çəki dərəcəsində 3-cü yerlə kifayətlənmişlər. Hər 3 boksçumuz Balakənddə yeniyetmələrin IX respublika oyunlarının final mərhələsində iştirak etmək hüququ qazanmışdır. Mart ayının 14-19-da Balakən rayonunda yeniyetmələrin IX respublika oyunlarının boks üzrə final yarışları keçirilmişdir. Bu yarışda da Vahid müəllimin yetirmələrindən İsmayıl Səfərli öz çəki dərəcəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxmış, Məmməd Nəmini və Şahin Yusifov isə 3-cü yerə çıxmışlar.

Mart ayının 17-22-də Astara rayonunda keçirilən yeniyetmələrin IX respublika oyunlarında əl topu üzrə komandamız zona yarışlarında uğurla çıxış edərək final yarışlarına vəsiqə qazanmışlar.

UGİM-nin futbol üzrə yığma komandası 5 yaş qrupunda Azərbaycan birinciliklərində şəhərimizi təmsil etmişdir. 15 yaşlı futbolçularımız 85 komanda arasında 7-ci yeri tutmuşlar.

Mart ayının 28-31-də Biləsuvar rayonunda Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin keçirdiyi yeniyetmələrin IX respublika oyunlarının proqramına daxil olan yunan-Roma güləş növü üzrə zona birinciliyində 4 güləşçimiz fərqlənmişdir.

Bu yarışda Mirsirac Həsənli 38 kq çəki dərəcəsində çempion adına layiq görülmüş, Sadiq Məmmədli 32 kq, Nicat Əmirov, Kamil Əliyev isə 63 kq çəki dərəcələrində fəxri kürsünün 3-cü pilləsinə qalxmışlar.

Komandanı yarışa məşqçimüəllimlər Natiq Zahidov və Vüsal Əhmədov hazırlamışdılar.

U-13, U-12 yaşlılardan ibarət komandamız may ayında Bakı şəhərində keçiriləcək final yarışlarında iştirak edəcəklər. Hazırda məktəbimizin yetirmələrindən U-16 yaşlılardan ibarət yığma komandanın tərkibinə daxil edilən Taryel Musayev (9 №-li tam orta məktəbin şagirdi), U-16 yaşlılardan ibarət komandanın tərkibinə daxil edilən Kamran Məmmədov (10 №-li tam orta məktəbin şagirdi) və Cavid Nəbizadənin (18 №-li Təbiət Humanitar təmayüllü məktəbliseyin şagirdi) adlarını çəkmək istəyirəm.

Qeyd etmək istəyirəm ki, əldə etdiyimiz uğurlar bizi arxayınlaşdırmır. Daha yüksək nəticələr əldə etmək əzmindəyik.

**Söhbəti yazdı: Alik RZAYEV,**
**«İşıq»ın ştatdankənar müxbiri**

**Çoxdan tanıdığım, qeybətsiz-qalsız Əbülfəz müəllimlə aramızda böyük yaş fərqi olsa da, həmişə söhbətimiz hər ikimiz üçün maraqlı alınırdı. Yaxşı mütaliəsi, geniş dünyagörüşü vardı. Ədəbiyyatdan, sənətdən, oxuduğu qəzet məqalələrindən söz açardı. Mərhum qardaşı, XX əsr Azərbaycan tarix elminin görkəmli tədqiqatçısı, tarix elmləri doktoru, əməkdar elm xadimi Əlövsət Quliyevlə, eləcə də onun dostları barədə həvəslə danışardı.**

# ƏBÜLFƏZ MÜƏLLİMİ - AĞSAQQALI, ZİYALINI İTİRDİK



Anasını erkən itirmiş Əbülfəz Quliyev Bakıda qardaşı Əlövsət müəllimin himayəsində böyümüşdü. Böyük alimin mənzilinə isə kimlər gəlmirmiş? Yusif Məmmədəliyev, Heydər Hüseynov, Səməd Vurğun, Ələsgər Ələkbərov, Şıxalı Qurbanov, Vəli Axundov, İsmayıl Dağıstanlı, Əjdər İbrahimov, Qulu Əsgərov və başqaları. Belə görkəmli elm, sənət adamları, dövlət xadimləri ilə təmasda olması Əbülfəz müəllimin ziyalı kimi yetişməsində böyük rolu olmuşdur. Əbülfəz müəllim ziyalı ocağında ziyalı kimi yetişmişdi.

Mənzilindəki kitab şkafına toxunub o «mizanı», səliqə-səhmanı pozmağa ürək eləmirdim. Burada kimlərin əsərləri (özü də əksəriyyəti avtoqrafla yazılıb) yox idi?! Saymaqla qurtaran deyil.

Əbülfəz müəllim deyirdi ki, (o son illərdə uşaqlarının təkidi ilə çox vaxt Bakıda onlarla yaşayırdı) Bakıda olanda şəhərimiz üçün, sonra gülüb əlavə edərdi, məni qınamayın, bu kitablarım üçün darıxıram. Evə gələn kimi kitabları, saralmış müxtəlif qəzet nömrələrini götürüb bir-bir vərəqləyirəm. Oxumağa imkanım olanda oxuyuram.

Əbülfəz müəllim həddindən artıq həssas, təvazökar adam idi. Abırlı-həyalı kişi idi. (Çoxlarında olmayan insani keyfiyyət) Respublikanın neçə-neçə tanınmış sənətçisi ilə- Rübabə Muradova, Zeynəb Xanlarova, Nəsibə Zeynalova, Bəşir Səfəroğlu, Əliağa Ağayev, Qulu Əsgərov və başqaları ilə şəxsi münasibətləri vardı. Xüsusilə, şəhərimizdə mədəniyyət şöbəsi müdiri işləyəndə bu sənətkarların burada konsertlərini təşkil etmişdi.

Bəzən onlarla bağlı xatirələrini kağız üzərinə köçürüb redaksiyaya gətirərdi. Bu abırlı kişi onu bizə təqdim edənə kimi haldan-hala düşürdü. Halbuki yaxşı bilirdi ki, redaktordan tutmuş hər birimizin ona hörməti böyükdür. Biz də yaxşı bilirdik ki, Əbülfəz müəllimin günün nəbzini tutmağı bacarır. Boş yerə qələmə sarılan deyil. Oxucunu razı salan, qəbul edilən yazı hazırlayardı. Buna baxmayaraq utana-utana deyirdi: «Baxarsınız, lazım bilsəniz, dərc edərsiniz».

Onun haqqında(yubiley günlərində) bir neçə dəfə yazı hazırlamışam. Bir Allah, bir də özüm bilirəm ki, bu təvazökar insanı buna razı salmaq üçün nələr etmirdim. Halalı olsun!

Ötən il 80 yaşı münasibəti ilə yazı hazırlamaq istəyəndə dedi:

-Etiraz edə bilməyəcəyəm. Bizdə 80 il yaşayan olmayıb. Allahın qismətidir ki, mən bu yaşa çatmışam. Həm də mənə elə gəlir ki, bu sonuncu yazı olacaq...

Gülüb zarafatla «olsa-olsa haqqımda nekroloq ola bilər, onu da siz yazarsınız», dedi.

Son illərdə səhhətindəki problemlərlə əlaqədar müalicə götürürdü. Bakıda yaşayan oğlu, qızları onu gözlərindən kənara buraxmaq istəmirdilər. Amma Əbülfəz müəllim fürsət düşən kimi bir şeyi bəhanə edib 56 illik ömür-gün yoldaşı Roza xanımla Şirvana gəlirdi.

Onu da qeyd edim ki, Əbülfəz müəllimi tanıdığım illərdən o həmişə Roza xanımdan böyük razılıqla danışırdı. Xüsusilə, ahıl yaşında sədaqətli həyat yoldaşının zəhmətinin əvəzsiz olduğunu söyləyirdi. Allahın izni, Rozanın qayğısı ilə yaşayıram, deyirdi.

Şirvana gələndə bəlkə də ilk zəng çaldığı mən olardım. Görüş yerini, vaxtını özü müəyyənləşdirərdi. Xeyli söhbət edərdik. Deyərdi ki, başa düşürəm yaşlamışam, xəstəlik də imkan vermir. Ona görə də uşaqlarım-oğlum Elxan, qızlarım Sənubər, Sevda Bakıda-gözlərindən kənara buraxmaq istəmirlər. Sağ olsunlar, övladlarım, nəvələrim də mənə qarşı çox diqqətlidirlər. Amma Şirvan şəhəri məni özünə çəkir. Uşaqlarıma izah edirəm ki, məni qınamayın. Ali təhsil alıb bu şəhərə işləməyə getmişəm. Gənclik illərim Şirvanın neft və qazçıxarma idarəsinin buruqları arasında keçib. Övlad sevincini də bu şəhərdə tapmışam. Sizlər Şirvanda dünyaya gəlmisiniz. Böyüyüb məktəbə yollanmısınız. Bu gün Şirvanın hər küçəsi, hər tini mənə ötən, bir daha geri dönməyəcək sevincli, fərəhli gənclik günlərimi xatırladır. Qoca üçün yaxşı xatirədən gözəl nə ola bilər?! Allah verən ömrümü mənalı, dəyərli keçirdiyimə görə özümü xoşbəxt sanıram.

Geoloq olsam da, bu şəhərdə müxtəlif vəzifələrdə çalışmışam. Şəhər Partiya Komitəsində məsul vəzifə daşımışam. 1971-ci ildə geri qalmış bir sahəyə- mədəniyyət şöbəsinə müdir təyin olunmuşam. Sonra rayonlararası Kino-prakatın direktoru işləmişəm. Müstəqillik illərində şəhər icra hakimiyyətində məsul vəzifədə çalışmışam. Buradakı insanlara qaynayıb qarışmışam. Saysız-hesabsız dostum, tanışım, iş yoldaşlarım var.

Burada hətta küçəyə çıxanda tanımadığım adamlar mənimlə salamlaşırlar. Təxmini olsa da bilirəm ki, harada, nə vaxtsa ona köməyim, yaxşılığım keçib. Təvazökarlıqdan kənar olsa da deməliyəm ki, harada işləmişəmsə, imkanım daxilində adamlara əl tutmuşam. Müşkül məsələlərdə köməklərinə çatmışam.

Şəhər rəhbərləri də həmişə hörmətimi saxlayırlar. Bayram günlərində tədbirlərə dəvət edirlər. Bir sözlə, bu şəhərdə sayılıram. Ona görə öz şəhərim, öz evim, öz ocağım mənim üçün daha doğma, daha əzizdir.

Martın 15-i idi. Evdə telefon zəng çaldı. Əbülfəz müəllim həmişəki kimi gülə-gülə Bakıdan «qaçıb gəlmişəm», dedi. Görüşək. Amma xahişim var. Həyətə düşə bilməyəcəyəm. Narahatam. Sabah bizə gəl. Mənə 1 saat vaxt ayır.

Dediyi vaxtda mənzilində oldum. Xeyli söhbət etdik. Axırda dedi:

-İnsan iki dəfə uşaq olur. Körpəlikdə və qocalıqda. Bilirsən, cavanlıqda da şeirlər yazmışam. Qoca vaxtımda da 1-2 «cızmaqara» etmişəm. Məsləhət olsa dərc edərsiniz. Sözünə ara verib «ola bilsin bu mənim son yazım olsun...»-dedi.

Novruz bayramını Bakıda uşaqlarla keçirəcəyəm. Sonra yenə bura gələcəyəm. Havalar yaxşılaşır, çıxıb gəzərik. Yenə də tutuldu. Xəyalı başqa yerdə idi.

Nəhayət dilləndi:

-Amma bir məsələ var.

Küçəyə çıxanda haqq dünyasına qovuşmuş dostlarım yadıma düşür. Vaqif Məmmədov, Rəşid Mirzəyev, Rəşid Həsənov, İsaxan Məmmədov, Hacı Nurəhməd Sültanov, Nadir Ələkbərov, Xanəli Rüstəmov, Ələsgər Ağabəyov və başqaları. Yumora keçdi. Mənə elə gəlir ki, onlar da mənsiz çox darıxıblar. Deyəsən məni görüşə çağırırlar.

Söhbətimizi bu kədərli notlarla qurtarmaq istəmirdim. Vəziyyətdən bu cümlə ilə qurtarmaq istədim.Dedim:

-Əbülfəz müəllim, biz hələ sizin 85, 90 illiyinizi qeyd edəcəyik. Sonrasına baxarıq...

Sonrası isə...

Yaradanın əmrindən qaçmaq olmaz.

Bir neçə gündən sonra-81 yaşına 1 neçə gün qalmış Əbülfəz müəllimin haqq dünyasına qovuşması xəbərini eşitdim. Bir dəyərli ağsaqqalı, ziyalını itirdik. Bu onu sevənləri hədsiz kədərləndirdi...

Sizin haqqınıza əvvəlki illərdə yazdığım məqalələrin sonuncu cümləsi belə qurtarardı: « Yubileyin mübarək, Əbülfəz müəllim!»

Məni bağışla Əbülfəz müəllim. 81-ci ildönümündə isə bu sözləri yaza bilməyəcəyəm. Əvəzində: «Min rəhmət sizə, Əbülfəz müəllim!» yazıram. Amma, necə deyərlər, fakt faktlığında qalır. Tanrının verdiyi ömrü yaşadın. Ləyaqətlə yaşadın. Sadəliyin, təmizliyin, insanlara yaxşılıqların, xeyirxahlığın yaddan çıxmayacaq. Ən əsası cəmiyyət, eloba üçün layiqli övladlar böyütdün. Bax, bu hər kişiyə nəsib olmur.

**F.RƏHİMOV**

# KİTABXANADA TƏDBİR

**31-mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar S.Ə.Şirvani adına Mərkəzi Kitabxanada tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə MKS-nin direktoru İltifat Nəbiyev açaraq bu tarixi günün xalqımızın həyatına ağır faciələrdən biri kimi daxil olduğunu qeyd etdi.**

Daha sonra çıxış edən Şəfəq Səlimova qeyd etdi ki, azərbaycanlılara qarşı iki əsr davam edən soyqırımı siyasəti nəticəsində erməni quldurları yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edib, minlərlə azərbaycanlını böyük qəddarlıqla qətlə yetiriblər. 1918-ci ilin mart-aprel aylarında isə qanlı hadisələr zirvə nöqtəsinə çatmışdır. Daha sonra S.Qarayev, M.Alxaslı və başqaları «Qan yaddaşımızda yaşayan müsibətlərimiz» mövzusunda danışaraq dedilər ki, bu faciə təkzibedilməz faktlarla sübuta yetirilmişdir. Çıxış edənlər onu da vurğuladılar ki, xalqımızın düçar olduğu faciələr unudulmamalı, vaxtaşırı olaraq gənclər arasında geniş şəkildə təbliğ edilməlidir.

**Alma CƏFƏROVA,**
**oxuculara xidmət şöbəsinin müdiri**

# ŞİRVAN MƏKTƏBLİLƏRİ DAHA BİR KONFRANSA YOLLANACAQ

**AZETA Azerbaijan (Azərbaycan İngilis dili müəllimləri Assosasiyası) 2006-cı ildən fəaliyyət göstərir. Bu qurumun şəhərimizdə özək təşkilatı 2012-ci ildə yaradılıb. AZETA SHİRVAN Branch yarandığı iki il ərzində bir çox layihələrdə uğurla çalışır. Bu proqramlardan biri də EAMP English Access Microscholarship layihəsidir. Layihənin əsas məqsədi bölgələrdə olan aztəminatlı ailələrin uşaqlarına ingilis dilini dərnəklər vasitəsilə öyrətməkdir.**

Amerika Departamentinin maliyyə dəstəyilə reallaşdırılan EAMP artıq illərdir ki, neçə-neçə məktəbliyə ingilis dilinin bütün incəliklərini mənimsəməkdə ən yaxın yardımçıdır.

21№-li tam orta məktəbin direktoru Səadət Quliyevanın rəhbərlik etdiyi AZETA SHİRVAN Branchın adıçəkilən dərnəklərində 12 şagird dil öyrənir. Dərsləri ingilis dili müəllimi Nəzakət Səmədova keçir. Həftədə 2 dəfə keçirilən dərnəkdə əsas dərslik «Cutting Edge» kitabıdır.

AZETA Azerbaijan təşkilatının prezidenti Rəqsanə Məmmədova və təşkilatın yaradıcılarından olan Südabə Sadiqin iştirakıyla AZETA SHİRVAN Branchin EAMP uşaqları «Erth Day» keçirdilər. Məqsəd məktəblilərdə humanistlik, vətənpərvərlik, Yer Kürəsinə və təbiətə sevgi aşılanması idi. Şagirdlər əvvəlcə məktəbin və onun həyətyanı sahəsini təmizlədilər, yeni ağac və güllər əkərək onları suvardılar. Açıq səma altında uşaqlarla aparılan fikir mübadiləsi qonaqlarda yüksək təəssürat oyatdı. Və bu yaxınlarda Bakıda keçiriləcək EAMP uşaqlarının XI konfransına dərnəyin altı üzvü seçildi.

**Yaqut VAFİQQIZI**

## ETİBARSIZDIR

Heydərov Rafiq Hüseyn oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məmmədova Arzu Alik qızına məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin

Mərdan Camalov, Samit Abıyev, Elman Abbasov, Elmira Ağayeva, Şəfayət Əsgərov, Əfsəlağa Babayev, Fəzail Süleymanov, Əminə Əliyeva, Azər Quliyev, Mehparə Səmədova, Əbülhəsən İbrahimov

**ƏBÜLFƏZ QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

# «VERGİLƏR UŞAQLARIN GÖZÜ İLƏ» MÖVZUSUNDA MƏKTƏBLİLƏR ARASINDA RƏSM VƏ İNŞA MÜSABİQƏSİ

**Bildiririk ki, 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibəti ilə Vergilər Nazirliyi tərəfindən təşkil olunan ənənəvi «Vergilər uşaqların gözü ilə» tədbirlər çərçivəsində müsabiqə elan olunur.**

Müsabiqənin əsas məqsədi vergilər haqqında məlumatların məktəblilər tərəfindən daha dərin mənimsənilməsi, gənclərin vətənə, xalqa, dövlətin iqtisadi siyasətinə, dövlətçilik idealarına sədaqət ruhunda tərbiyə edilməsi və gələcəyin vergi ödəyiciləri olan gənclərə vergilər və vergilərin sosial təyinatı haqqında biliklərin uşaqların anlaya biləcəkləri tərzdə onlara çatdırılmasından ibarətdir.

Müsabiqə məktəblilər arasında 5-8, 9-12, 13-17 yaş qrupları üzrə rəsm və inşa nümunələrinin qəbul edilməsindən ibarətdir. Müsabiqə 01.04.2014-cü il tarixdən 10.05.2014-cü il tarixlər arasında yuxarıda qeyd olunan yaş qrupları və növləri üzrə ayrıayrı nominasiyalarda təşkil edilməklə iki mərhələdə keçiriləcəkdir. Müsabiqədə şəhər və rayonlar üzrə 1-ci, 2-ci, 3-cü yeri tutmuş qaliblər müəyyən edildikdən sonra zona qaliblərinin müəyyən edilməsi məqsədi ilə şəhər və rayonlar üzrə 1-ci, 2-ci və 3-cü yeri tutmuş qaliblərə 5 saylı Ərazi Vergilər İdarəsinin nəzarət əhatəsinə daxil olan Hacıqabul, Salyan, Neftçala, Saatlı və Sabirabad rayonlarında bu müsabiqə üzrə müəyyən edilmiş qaliblər arasında final mərhələsi keçiriləcəkdir.

Keçirilmiş müsabiqənin nəticələri üzrə 1-ci, 2-ci, 3-cü yeri tutan qaliblər şəhər mədəniyyət evlərinin (dərnəkləri), təhsil şöbəsinin, «Vergi dostları»layihəsinin nümayəndələrindən ibarət təşkil olunan münsiflər heyəti tərəfindən 01.05.2014-cü il tarixdən 05.05.2014-cü il tarixədək müəyyən edilir. 5 saylı Ərazi Vergilər İdarəsinin nəzarət əhatəsinə daxil olan Şirvan şəhəri, Hacıqabul, Salyan, Neftçala, Saatlı və Sabirabad rayonlarda hər iki nominasiya üzrə 1-ci, 2-ci, və 3-cü yerləri tutmuş qaliblər arasında 05.05.2014-cü il tarixdən 15.05.2014-cü il tarixədək zona müsabiqəsi keçirilir. Zona müsabiqəsinin nəticələri 5 saylı Ərazi Vergilər İdarəsinin nəzarət əhatəsinə daxil olan şəhər, rayon təhsil şöbələrinin nümayəndələri və «Vergi dostları» layihələrinin nümayəndələrindən ibarət tərkibdə təşkil olunan münsiflər heyəti tərəfindən müəyyən edilir.

Müsabiqədə iştirak edənlərin təhsil aldığı şəhər və rayonlar üzrə 1-ci, 2-ci və 3-cü yerləri tutmuş iştirakçılar müsabiqənin məqsədləri üçün qaliblər hesab edilirlər və müsabiqəyə təqdim etdikləri layihələr şəhər (rayon) KİVdə işıqlandırılacaqdır. Lakin müsabiqənin təkcə həmin şəhər və ya rayonu deyil Şirvan şəhəri, Hacıqabul, Salyan, Neftçala, Saatlı və Sabirabad rayonlarını əhatə etdiyi nəzərə alınmaqla final mərhələsində hər üç yaş qrupları üzrə rəsm və inşa müsabiqəsində 1-ci, 2-ci və 3-cü yerləri tutmuş şəxslər əsas qaliblər hesab ediləcək tədbir keçirilməklə mükafatlandırılırlar və onlara müsabiqənin nəticələrinə görə diplomlar təqdim edilir.

**Əlavə məlumatı 5 saylı Ərazi Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinə (telefon tel: 021 216-11-02) zəng etməklə və ya şəxsən gəlməklə əldə edə bilərsiniz.**

Baş redaktor: M.M.XƏLİLOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet "OL"MKPT MMC-də ofset üsulu ilə çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-06-60
Redaktor müavini: 6-19-18

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 1200